*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 181-186*

https://doi.org/10.62837/2024.10.181

**SƏYYARƏ QƏHRƏMANOVA**
**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh,Təbriz küç,81)

# MÜRƏKKƏB SİNTAKTİK KONSTRUKSİYALAR SİSTEMİNDƏ TABESİZ MÜRƏKKƏB CÜMLƏLƏRİN YERİ

**Açar sözlər;** tabesiz mürəkkəb cümlə,mürəkkəb sintaktik konstruksiya, mürəkkəb cümlə, nəzəri konsepsiya,formal-qrammatik cəkət,leksik və fonetik cəhətlər,məna əlaqəsi.

**Ключевые слова:** подчиненное сложное предложение, сложная синтаксическая конструкция,
сложное предложения,теоретическая концепция,формальный грамматичес-кий аспект,лексический и фонетичес-кий аспекты ,смысловое отношения.

**Key words;** Subordinatenate complex sentence, Complex syntactic concept,complex sentence,theoreticial concept,formal grammatical aspect,lexical and phonetik aspects, relation of meaning.

Mürəkkəb sintaktik konstruksiyalar sistemində tabesiz mürəkkəb cümlələrin özünəməxsus mövqeyi vardır. Belə ki, ifadə etdiyi fikri qrammatik formasına, əhatə dairəsinə görə tabesiz mürəkkəb cümlələr heç də digər sintaktik konstruksiyalardan geri qalmır, əksinə özünə məxsus quruluşuna görə digər formalardan seçilir.

Lingvistik ədabiyyatda tabesiz mürəkkəb cümləyə yanaşma da fərqlidir və bu barədə xeyli fikir müxtəliflikləri mövcuddur.Qeyd etmək lazımdır ki, mürəkkəb cümlələrin özünü müəyyən etmək çətin və müxtəlif olduğundan, indiyə qədər dilçilər arasında da onların statusu haqqında vahid bir fikir yoxdur. Bu cəhətdən tabesiz mürəkkəb cümlələrin ətraflı şəkildə xüsusi eksperiment yolu ilə araşdırılması, bu cür fikirlərin aydınlaşdırılmasına və ümumi bir məxrəcə gəlməsinə xeyli xidmət etmiş olardı.

Deyilən fikirlər özünü bir daha onunla sübut edir ki, 80-ci illərdə dilçilikdə 300-dən artıq cümləyə verilən təriflər mövcud olmuşdur (7). Bu fakt özü bir daha mürəkkəb cümlə probleminin həmişə diqqət mərkəzində olduğunu ,bu məsələnin heç vaxt gündəmdən düşmədiyini göstərir.

Mürəkkəb cümlələrə verilən təriflərdə bir çox oxşar cəhətləri ilə yanaşı, onları bir-birindən fərqləndirən cəhətlər də çoxdur. Bunlar, hər şeydən əvvəl, müxtəlif tədqiqatçıların məsələyə terminoloji cəhətdən yanaşmasında, fəlsəfi cəhətdən fikir yürütmələrində, yaxud nəzəri konsepsiyalarda özünü göstərir. Yəni əsas məsələ hansı tədqiqatçının məsələyə hansı cəhətdən yanaşmasından asılıdır.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 181-186*

Bunun nəticəsidir ki, dilçilər mürəkkəb cümlənin tipini müəyyənləşdirmək üçün müxtəlif terminlərdən istifadə edirlər ki, bunlar da sonda terminoloji cəhətdən fikir müxtəlifliyinə gətirib çıxarır. Lakin əsas məsələ terminoloji cəhətdən müxtəlif adlar tapmaq yox, mürəkkəb cümlələrin mahiyyətini, onların komponentlərinin bir-birindən asıllıq səviyyəsini, onların ifadə etdikləri fikrin mahiyyətini açıb göstərməkdən ibarətdir. Yəni, nə üçün bu cür konstruksiyalara mürəkkəb cümlələr adı verilir? Bunlar hansı xüsusiyyətlərinə görə mürəkkəb cümlələr adlandırılır? Bəlkə elə bir çox dilçilərin bu konstruksiyalara verdikləri digər adlar daha məqsədə uyğundur. Bütün bunlar hamısı geniş tədqiqat işlərinin mövzusudur və gec-tez bu məsələlər öz həllini tapmalıdır.

M.N.Petersonun fikrincə, tabeli mürəkkəb cümləni tabesiz mürəkkəb cümlədən fərqləndirən kəskin əlamətlər yoxdur. Sonra o, qeyd edir ki, bir halda ki, tabeliliyi tabesizlikdən fərqləndirən kəskin əlamətlər yoxdur, onda deməli heç tabeli və tabesiz cümlələr də yoxdur. Bu zaman söhbət tabeli və tabesizlikdən deyil, sadəcə olaraq söz birləşmələrini və onların funksiyalarını birləşdirən vasitələrdən getməlidir (5).

Lakin digər görkəmli dilçilər L.R.Zinder ve T.V.Stroyevanın fikrincə, tabesiz ve tabeli mürəkkəb cümlələrin arasında fərq çox aydın nəzərə çarpır.

Əgər tabesiz cümlənin tərkibinə daxil olan komponentlər özlərinin müstəqilliyini saxlaya bilərsə, tabeli mürəkkəb cümlənin komponentləri haqqında bunları demək olmaz.Tabeli mürəkkəb cümlələrdə budaq cümlə sanki baş cümləyə yapışır. Tabelik və tabesizlik təkcə formaya görə əsaslanmır, eyni zamanda onlar mənaya görə fərqlənirlər. Bu nöqteyi-nəzərdən struktur və məna cəhətdən tabesiz mürəkkəb cümlənin komponentləri həmişə öz müstəqillik-
lərini saxlayırlar (3).

Fundamenta “l Der groBe Düden" əsərinin müəllifləri də belə bir fikirdən çıxış edirlər ki, tabesiz mürəkkəb cümlələr iki və daha artıq bərabər hüquqlu cümlələrin birləşməsindən əmələ gəlir və onların komponentləri asindetik və sindetik cəhətdən bir-biri ilə bağlanır. Qeyd etmək lazımdır ki, müstəqilliyi həm məna, həm struktur, həm qrammatik və həm də fonetik-intonasiya cəhətdən başa düşmək lazımdır. Lakin tabesiz mürəkkəb cümlənin komponentlərinin hansı növ cümlələrdən təşkil olunduğunu nəzərdən keçirdikdə bu məsələ bir qədər də sual yaratmış olur.

Bu fikir bir çox dilçilərin əsərlərində öz əksini tapır va buna görə bu məsələlərin tədqiqində çox diqqətli olmag lazimdir (9).

Əlbəttə, bu cür təsdiq heç də şübhə doğurmur, əgər söhbət tabeli mürəkkəb cümlə ilə müqayisədə nisbi müstəqillikdən gedirsə, həqiqətən də tabesiz mürəkkəb cümlələrin komponentləri tabeli mürəkkəb cümlə ilə müqayisədə az va ya çox dərəcədə müstəqilliyə malikdir.

Bunu təsdiq etmək üçün alman dilində olan aşağıdaki cümlələri nəzərdən keçirmək kifayətdir:

İch gab einen Laut von mir, die Eltern blickten sich bedeutungsvoll an.

Er blieb zu Hause, weil es regnete.

Aparılan eksperimentlər də təsdiq edir ki, ikinci cümləyə nisbətən birinci cümlədə komponentlər daha çox sərbəstdir. Lakin grammatik cəhətdən birinci cümlənin də komponentləri tabeli mürəkkəb cümlənin komponentləri kimi bir-birindən asılıdır. Lakin ikinci cümlədə komponentlər arasındakı müstəqillik həm məna, həm də qrammatik cəhətdən yox dərəcədədir. Doğrudur birinci komponent "Er blieb zu Hause, müstəqil cümlə kimi işlənə bilər, lakin burada komponentlərin intonasiya cəhətdən bir-birindən asıllığından danışmadan belə, ikinci komponent bütün cümlənin ifadə etdiyi fikirdən asılı olduğu üçün müstəqil işlənə bilmir.

Bu cəhətdən V.Q.Boqoroditski, V.V.Vinoqradaov, A.M.Peskovski kimi görkəmli dilçilərin fikirləri çox maraqlıdır. Onlar tabesiz mürəkkəb cümlənin komponentlərinin müstəqilliyini qəbul etmir. V.V. Vinoqradov qeyd edir ki, görünən müstəqilliyə baxmayaraq onlar (tabesiz mürəkkəb cümlənin komponentleri Y.M.) ayrı-ayrı komponentləri bir-birindən asılı olan struktur semantik və məna birliyi yaradir (2).

Lakin tabesiz mürəkkəb cümlələrin komponentlərinin müstəqilliyini tamamilə inkar etmək olmaz. Burada komponentlətin yerinin dəyişdirilməsi faktı bu məsələni bir qədər sual altına alır. Lakin A.M.Peskovski tərəfindən irəli sürülən bu fikir özünü o qədər də doğrultmur.Bu xüsusilə səbəb nəticə əlaqəli tabesiz mürəkkəb cümlələrdə özünü qabarıq şəkildə nəzərə çapdırır.

Yəni bir yerdə nəticə olan, başqa bir yerdə səbəb olur. Deyilən bu fikirləri aşağıdaki misallar əsasinda bir daha sübut etmək olar:

Es regnete und der Boden wurde naß.

Der Boden wurde naß, deshalb begann das Auto zu schleudern.

Birinci misalda birinci komponent «Es regnete» səbəb ,ikinci komponent «der Boden wurde naß» nəticədir. İkinci cümlədə isə birinci cümlə üçün nəticə olan «der Boden wurde naß», basqa bir hadisə üçün səbəb olur. Yəni səbəblər və nəticələr həmişə yerlərini dəyişə bilir.

Tabesiz mürəkkəb cümlələrin komponentlərinin qeyri-müstəqilliyi fikrini A.M.Peskovski də göstərir.

Xarici dilçilərin əsərlərində tabesiz mürəkkəb cümlələrə verilən təriflərdə çox zaman intonasiya anlayışı nəzərə alınmır. Burada yalnız asindetik və sindetik əlaqələrdən söhbət gedir.

Komponentlərin müstəqilliyindən danışarkən görkəmli alman dilçisi H.Paul qeyd edir ki, tam müsteqillikdən o zaman danışmaq olar ki, onlar yalnız ayrılıqda mövcud olsun. O, öz fikrini davam etdirərək göstərir ki, əgər söhbət tabesizlikdan gedirsə, bu o demək deyildir ki, bir cümlənin digəri ilə heç bir əlaqəsi yoxdur, əksinə, asıllıq qarşılıqlıdır (8).

Tabesiz mürəkkəb cümlələrin komponentlerinin bərabərhüquqlu olması fikri, demək olar ki, əksər xarici dilçilər tərəfindən qeyd olunur.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 181-186*

Xarici dilçilər arasında tabesiz mürəkkəb cümlənin komponentləri arasında göstərilən bağlayıcıların sayı üçdən on beşə qədər təşkil edir.Göründüyü kimi, xarici dilçilər arasında da tabesiz mürəkkəb cümlələrin komponentləri arasında bağlayıcıların sayında fikir birliyi yoxdur.

Formal-qrammatik cəhətdən tabesiz mürəkkəb cümlələrin komponentləri müxtəlif cümlələrdən ibarət ola bilər:

a) iki sadə cümlədən;
b) sadə va tabesiz mürəkkəb cümlədən;
c) sadə va tabeli mürəkkəb cümlədən;
d) iki tabesiz mürəkkəb cümlədən;
e)iki tabeli mürəkkəb cümlədən;
f) tabesiz va tabeli mürəkkəb cümlələrdən və s.

Tabesiz mürəkkəb cümlələrin komponentleri arasında əlaqələrdən söhbət gedərkən , müasir dilçilikdə komponentlər arasında müxtəlif əlaqə növlərinin olduğu qeyd olunur. Bu tiplərdən hər biri üç vasitə ilə ifadə oluna bilər: asindedik, işarə elementlərinin köməyi ilə və bağlayıcılarla 3).

Müxtəlif dilçilər tabesiz mürəkkəb cümlənin komponentləri arasında müxtəlif sayda bağlayıcının işləndiyini qeyd edirlər. Bu da bir daha dilçilər arasında bu sahədə fikir birliyinin olmadığını sübut edir və bir daha bu məsələnin tədqiqata ehtiyacı olduğunu göstərir.

Tabesiz mürəkkəb cümlənin komponentlərinin fonetik cəhətdən təşkilində intonasiya xüsusi yer tutur. Qeyd etmək lazımdır ki, alman dilində mürəkkəb sintaktik kostruksiyaların intonasiya quruluşu az-çox tədqiq olunmuşdur.

Lakin praktik və nəzəri fonetikanın bir sahəsi kimi həm tabesiz,həm də tabeli mürəkkəb cümlələrin intonasiya quruluşu hələ də öz təsdiq olunmuş sahələrdən biri kimi qalmaqdadır.

Bununla belə, aparılan tədqiqatlar gösterir ki, intonasiya tabesiz mürəkkəb cümlələrin komponentlərinin birləşdirilməsində onların arasında məna əlaqələrinin gücləndirilməsində əsas vasitələrdən biri kimi çıxış edir. Bunun nəticəsidir ki, A.M. Peskovski də mürəkkəb sintaktik vahidləri intonasiya ilə sıx əlaqədə nəzərdən keçirir. Xüsusilə qrammatikanın intonasiya ilə

əlaqəsi ideyasını F.Y.Veysolov özünün namizədlik dissertasiyasında daha ətrafli analiz etmişdir (1).

Nəhayət, aparılan tədqiqat işlərinə əsaslanaraq belə bir nəticəyə gəlmək olar ki, qrammatikaya həsr olunmuş bir çox əsərlərdə göstərildiyi kimi, tabesiz mürəkkəb cümlələr iki bərabərhüquqlu cümlələrin birləşməsindən deyil, iki və daha artiq komponentlərin birləşməsindən əmələ gəlir və qrammatik, leksik ve fonetik cəhətdən bir-biri ilə sıx sürətdə bağlı olur və mürəkkəb sintaktik tərkibdə heç zaman müstəqil ola bilmir.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 181-186*

## Ədəbiyyat

1.Вейсалов Ф.Е.Заверщающая ингонация в немецком языке Л.1970
2.Виноградов .В.В.Основные вопросы синтаксиса предложения.М.1955.
3.Зиндер Л.Р.Строева Т.В.Современ-ний немецкий язык.М.1957
4.Петерон М.Н.Очерк синтаксиса современного русского языка.М.1923.
5.Пешковский.А.М.Русский синтаксис в научном общения.М.1956
6.Duden;Grammatik der deutschen Gegenwartssprache,L.1962.
7.Jung.W.Grammatik der deutsche Sprache Leipzig.1980.
8.Paul.H Deutsche .Grammatik.Halle 1955.
9.Schendels E.Deutsche Grammatik .M.1979.

**Sayyara Qəhrəmanova**

**XÜLASƏ**

**Mürəkkəb sintaktik konstruksiyalar sistemində tabesiz mürəkkəb cümlələrin yeri.**

Bu məqalədə müxtəlif alimlərin mürəkkəb cümlələrlə bağlı fikirləri təhlil edilir və cümlələrin
tərkib hissələrinin bir birindən asılılığı nəzərdən keçirilir.

Tabesiz mürəkkəb cümlənin komponentlərinin fonetik cəhətdən təşkilində intonasiya xüsusi yer tutur.Qeyd etmək lazımdır ki, alman dilində mürəkkəb sintaktik konstruksiyaların intonasiya quruluşu az-çox tədqiq olunmuşdur.Lakin praktik və nəzəri fonetikanın bir sahəsi kimi həm tabesiz, həm də tabeli mürəkkəb cümlələrin intonasiya quruluşu hələ də az tədqiq olunmuş sahələrdən biri kimi qalmaqdadır.

Aparılmış təcrübələr nəticəsində məlum olunmuşdur ki,mürəkkəb cümlənin tərkib hissələri mürəkkəb cümlənin qurulması çərçivəsində müstəqil ola bilməz.

**S.Qahramanova**

**Резюме**

**Место сложносочиненных предложений в системе сложных синтаксических конструкций.**

В статье анализируются предпосылки разных лингвистов о сложносочиненных предложениях и рассматривается зависимость компонентов. Интонация занимает особое место в фонетическом расположении компонентов придаточного сложного предложения.

Следует отметить,что интонационная структура сложных синтаксических конструкции в немецком языке более или менее изучена.

Однако как область практической и теоретической фонетики интонационное строение как придаточных сложных предложений остаётся одной из малоизученных областей.

В резултате проведённых экспериментов выяснилось ,что компоненты сложного предложения не могут быть самостоятельными внутри сложносочинённого предложения.

**S.C.Qəhrəmanova**

**Summary**

**The place of compound Sentences in the System of Complex Syntactic Constructions.**

In the article the thoughts of different scientists on the compound sentences are analysed and the dependence of the components of such sentences from one another is considered.

Intonation takes a special place in the phonetik arrangement of the components of a complex sentence without subordinate.

It should be noted that the intonation strukture of complex syntactic constructions in the German language has been more or less studied.

However,as a field of practical and theoretical phonetics,the intonation structure of both subordinate and subordinate complex sentences remains one of the less studied areas.

As a result of carried out experiments it has been clear that the components of compound sentences can't be independent within the construction of a compound sentence.

**Redaksiyaya daxil olma tarixi: 11.10.2024**
**Çapa qəbul olunma tarixi: 24.10.2024**
**Rəyçi:f.e.d.dos.Aida Sobor**
**tərəfindən çapa tövsiyə olunmuşdur**